# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında” 2018-ci il 25 yanvar tarixli 16 nömrəli Qərarında dəyişiklik edilməsi və “Naxçıvan Muxtar Respublikasının daxili işlər orqanları əməkdaşlarının attestasiyasının keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2018-ci il 6 yanvar tarixli 2 nömrəli, “Naxçıvan Muxtar Respublikasında sığortaolunanların və sığortaedənlərin işsizlikdən sığorta üzrə sığortaçıda qeydiyyatı Qaydası”nın təsdiq edilməsi haqqında” 2018-ci il 25 yanvar tarixli 17 nömrəli, “Naxçıvan Muxtar Respublikasında fərdi məşğulluq proqramının yerinə yetirilməsi Qaydası və hesabatın forması”nın təsdiq edilməsi haqqında” 2018-ci il 25 yanvar tarixli 18 nömrəli, “Naxçıvan Muxtar Respublikasında sığorta ödənişinin verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2018-ci il 25 yanvar tarixli 19 nömrəli, “İşsizlikdən sığorta vəsaitlərinin uçotunun aparılması və hesabatın təqdim olunması Qaydası”nın təsdiq edilməsi haqqında” 2018-ci il 25 yanvar tarixli 20 nömrəli və “Naxçıvan Muxtar Respublikasında müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2018-ci il 15 mart tarixli 52 nömrəli qərarlarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinin IV hissəsini və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 25 yanvar tarixli 16 nömrəli Qərarının 1-ci və 2-ci hissələri ləğv edilsin.

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aşağıdakı qərarları ləğv edilsin:

2.1. “Naxçıvan Muxtar Respublikasının daxili işlər orqanları əməkdaşlarının attestasiyasının keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 6 yanvar tarixli 2 nömrəli Qərarı;

2.2. “Naxçıvan Muxtar Respublikasında sığortaolunanların və sığortaedənlərin işsizlikdən sığorta üzrə sığortaçıda qeydiyyatı Qaydası”nın təsdiq edilməsi haqqında”

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 25 yanvar tarixli 17 nömrəli Qərarı;

2.3. “Naxçıvan Muxtar Respublikasında fərdi məşğulluq proqramının yerinə yetirilməsi Qaydası və hesabatın forması”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 25 yanvar tarixli 18 nömrəli Qərarı;

2.4. “Naxçıvan Muxtar Respublikasında sığorta ödənişinin verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 25 yanvar tarixli 19 nömrəli Qərarı;

2.5. “İşsizlikdən sığorta vəsaitlərinin uçotunun aparılması və hesabatın təqdim olunması Qaydası”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 25 yanvar tarixli 20 nömrəli Qərarı;

2.6. “Naxçıvan Muxtar Respublikasında müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 15 mart tarixli 52 nömrəli Qərarı.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Ceyhun Cəlilov**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, “ 24 ” “ aprel ” 2025-ci il

№ 23